# AZERBAYCAN DİLİNDE MORFOLOJİ NORMALILIQ YARANMASINDA YİYLİK HALIN MÖVQEYİ

## Morfolojik Normlaşmanın Oluşumunda İlgi Hâlinin Pozisyonu (Azerbaycan Türkçesi Verileri İle)

Çingiz HÜSEYNZADƏ*

***Özet***

*Makalede, ilgi hâlli belirtisiz ve belirtili ad tamlamalarının dil bilgisel normlaşmaları tespit olunmuştur: 1) Değişmez somutluluk bildiren tamlamalar; 2) Değişmez genellik bildiren tamlamalar; 3) Değişken tamlamalar. Söz konusu normlaşmaların, konuşma ortamına, metne ve kelime bölükleri arasındaki sözcüksel ve sözdizimsel ilişkilere bağlı olarak biçimlendiği gösterilmektedir.*

***Anahtar Kelimeler:*** *Morfolojik, normlaşma, ilgi hali, ad tamlaması, sözcükselsözdizimsel ilişkiler.*

***Abstract***

*In this article the grammatical norm formations of noun phrases with the possessive genitives, qualified and not qualified by adjective are determined: 1) Noun phrases defining unchangeable concreteness; 2) Noun phrases defining unchangeable generality; 3) Changeable noun phrases. It is shown that, these norm formations, are formed because of the native spoken environment, text, lexical and syntactical relations between parts of speech.*

***Keywords:*** *Morphological norm formation, possessive genitive, noun phrases, lexicalsyntactical relations.*

* Doç. Dr., Azerbaycan

Qrammatik kateqoriya olmaq etibarilə halların özünün norma səciyyəsi qazanmnasına müəyyən tarixi proseslərlə, nitqə məxsus bu və ya digər üslubi və areal xüsusiyyətlərin müvafiq təsirləri vardır.

Hal kateqoriyası müəyyən qrammatik əlaqələrə məxsus funksiyasını altı hal üzrə yerinə yetirir. Bunlardan birincisi adlıq hal adlanır və bu hal heç bir qrammatik göstəriciyə malik deyildir. Lakin adlıq hal qrammatikada mübtəda və xəbər arasındakı əlaqələrin formalaşmasında iştirak etdiyi üçün özünəməxsus qrammatik funksiya daşıya bilir və şəkilçisizliyinə görə neytral olduğu üçün başqa başqa halların müəyyənləşdirilməsində meyar rolunu da oynaya bilir. Y. Seyidov adlıq halın şəkilçisizlik xarakteri barədə öz fikirlərini belə ifadə edir: “qrammatik kateqoriyaları bir-birindən ayırmaq üçün qrammatik göstəricilərin varlığı vacibdir : kitab, kitabın, kitabda, kitabdan. Bu göstəricilərə görə bu halların hamısı adlıq haldan fərqlənir. Bəs adlıq hal və ya adlıq baldakı isim nə ilə hansı göstərici ilə o biri hallardan ayrılır? Belə zahiri göstəricinin olmaması ilə, yəni sıfır göstəricisi ilə”[1].

Adlıq halın şəkilçisiz işlənməsi bu hal barədə müxtəlif fikir və mülahizələrin də yaranmasına səbəb olmuşdur. Bəzən adlıq halı başqa halların yaranması üçün çıxışlıq halın və başqa halların əmələ gəlməsində əsas olması barədə də fikirlər irəli sürülmüşdür[2]. Adlıq hal barədə danışarkən onun mübtəda halı, nominativ hal, qeyri-müəyyən hal adlandırılması fikirlərinə də rast gəlmək olur.[3]

Bəzən adlıq hal digər hallarla müqayisədə müstəqil hal kimi nəzərə alınır. Məsələn, N. Məmmədov və A. Axundovun "Dilçiliyə giriş" kitabında adlıq hal aşağıdakı kimi xarakterizə olunur: “İsimlərin halları onların dəyişmə formasıdır. Bu da istər cümlədə, istərsə də müəyyən tərkib daxilində fellərin və başqa sözlərin tərkibindən (idarəsindən) asılı olaraq meydana gəlir. Bunu daha yaxşı başa düşmək üçün Azərbaycan dilində ismin adlıq halı ilə başqa hallarını müqayisə etmək kifayətdir. Məsələn, kitab, kitabın, kitaba, kitabı, kitabda, kitabdan sözlərini nəzərdən keçirdikdə aydın olur ki, kitab sözü ismin adlıq halında daha çox müstəqildirsə, qalan hallarda bu müstəqillik yoxdur”[4].

Adlıq hal şəkilçisiz hal olsa da onu formasız hal kimi qiymətləndirmək düzgün deyildir. Çünki, bu hal qrammatik mövqedə

1 Bax: Y. Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2000, s. 237.

2 Bax: O. M. Moskalskaya. Grammatika nemetskogo yazıka. Teoretiçeskiy kurs. M. 1958. s. 84; K. M. Musaev. Grammatika karaimskogo yazıka. Fonetika i morfologiya. M. 1984, s. 150; Grammatika ruskogo yazıka, M. 1960, s. 118; A. M. Şerbak. Oçerki po sravnitelnoy morfologii tyurkskix yazıkov. L. 1977, s.29.

3 Bax: M. Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1983, s. 33; A. Şərifov. Qrammatika, Bakı, 1936, s. 46; Əlavə bax: Y. Seyidov. Azərbaycan dinlin qrammatikası. Bakı, 2000. s. 236-240.

4 Bax: N. Məmmədov., A. Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s.187.

işləndiyinə görə qrammatik funksiyalılıqdan kənarda deyildir. Odur ki, belə bir fikrə haqq qazandırmaq olar ki, ayrılıqda götürülmüş hər hansı bir leksik vahid ismin adlıq halına aid edilə bilməz.[5]

Beləliklə, adlıq halın qrammatik əlaməti olmadığı üçün onun xüsusi morfoloji normasından bəhs etmək imkanları yoxdur. Lakin bu hal özünəməxsus funksiyalara malikdir. Bunlardan birincisi, hallar sistemində bu halın başqaları üçün meyar olmasından, qrammatik mövqedə isə bu halda çıxış edən sözün mübtəda yerində işlənməsindən, o cümlədən, mübtədanın konkret meydanda olması zərurət sayılmayan hallarda onun xəbərdə öz əksini tapmasından ibarətdir. Yerdə qalan halların özünəməxsus morfoloji əlamətləri vardır ki, onların norma xüsusiyyətləri müvafiq sintaktik tərkiblərdə həmin şəkilçilərin özünəməxsus qaydada işlənmələri ilə müəyyən edilir. Bu məqalədə qarşıya qoyulan əsas məqsəd də bu hallardan biri kimi Azərbaycan dilində yiyəlik halın morfoloji normalılıq yaranmasındakı mövqeyini ümumiləşdirməkdən ibarətdir.

Yiyəlik halın morfoloji əlamətləri aşağıdakılardan ibarətdir -m (- in,-un,-ün ),- nın (- nin,- nün,- nün ).

Yiyəlik halın mətndəki məntiqi anlayış funksiyası onun sahib şəxs anlayışı bildirməsi ilə ölçülür. Bu halın qrammatik funksiyası isə mənsub əşya anlayışlı sözün tərkibini müvafiq şəkildə dəyişib xüsusi morfoloji əlamət qəbul etməsindən ibarətdir. Ancaq mətndə mənanın konkretliyindən və ya ümumiliyindən asılı olaraq yiyəlik hal şəkilçisi işlənib-işlənməyə bilər. Yiyəlik halda sahib şəxs anlayşı şərti anlayışdır. Yəni bu anlayışa həmişə məntiqi bir anlayış kimi baxmaq olmaz. Odur ki, yiyəlik hal barədə danışarkən ona aid edilən sahib şəxs anlayışına məntiqi mənalılıqdan çox qrammatik mənalılıq kimi baxılmalıdır. M. Hüseynzadə yiyəlik halın anlayış xüsusiyyəti barədə bəhs edərkən göstərir ki, yiyəlik məzmunu ən çox malik ola bilən şəxsə aid olduğundan tələbənin kitabı birləşməsində tələbənin sözü həmin məzmunu ifadə edə bilir. Halbuki tələbələrin beşi birləşməsindəki tələbələrin sözü yiyəlik halda işlənmişsə də heç bir sahiblik məzmunu ifadə etmir.[6]

Y. Seyidov qeyd edir ki, yiyəlik hala aid olan mənalar təkçə yiyəlik halın özünün məzmunundan yox, həm də onunla birlikdə söz birləşməsi əmələ gətirən sözün əlaqəsindən irəli gəlir.[7]

Yiyəlik halda şəkilçi işlənib işlənməməsindən asılı olaraq yiyəlik hallı birləşmələrdə özünəməxsus normativlik yaranır. Qrammatika kitablarında yiyəlik hal şəkilçilərinin iştirakı ilə yaranan yiyəlik hal forması müəyyən,

5 Bax: M. Kıpçak. Kategoriya padeja v tyurkskix yazıkax. Baku, 1994, s. 50. Əlavə olaraq bax: M. Novruzov. Formirovanie i razvitie kategori padeja v tyurkskix yazıkax. Avtoref. kan. diss. Bakı, 1989, s. 10-11.

6 Bax: M. Hüseynzadə. Müasir Azərbaycan dili, Bakı, 1973, s.57.

7 Bax: Y. Seyidov. Azərbaycan dilinin qrammatikası. Bakı, 2000, s. 252.

yiyəlik hal şəkilçisinin iştirakı olmadan yaranan yiyəlik formaları qeyri-müəyyən hal kimi xarakterizə edilir. Söz birləşməsi təşkil edən sintaktik tərkib məntiqi anlayışa görə konkretlik tələb olunduqda yiyəlik hal şəkilçisi işlənir. Ancaq yiyəlik halda konkretlik bildirən söz işlədildiyi zaman hal şəkilçisinin meydanda olması labüddür. Konkretlik tələb olunmadıqda isə yiyəlik hal qeyri-müəyyənlik bildirir. Azərbaycan dilində yiyəlik hal üzrə normalaşan vahidlərin təhlili ilə belə bir nəticəyə gəlmək olur ki, müəyyən qrup birləşmələrdə konkret yiyəlik hal anlayışı daimidir. Onlarda yiyəlik halın qeyri-müəyyən halını müəyyən hal kimi işlətmək olmur. Müəyyən qrup yiyəlik hallı birləşmələr də vardır ki, onlarda müəyyənlikdən qeyri-müəyyənliyə və ya əksinə keçid mümkündür. Bütün bu hallar təkcə birləşmənin birinci tərəfini təşkil edən yiyəlik hallı sözün xarakteri ilə yox, həm də onun idarə olunduğu mənsub əşya anlayışlı sözün konkretlik və ümumiliyə meyl göstərməsi ilə də müəyyən edilir.

Beləliklə, Azərbaycan dilində yiyəlik hallı birləşmələrin norma xarakterini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

1) daimi konkretlik bildirənlər

a )birləşmənin birinci tərəfində mən, sən, o, bu, biz, siz, onlar kimi əvəzliklər iştirak etdikdə : mənim kitabım, sənin kitabın, onun kitabı, bunun rəngi, sizin kitabınız, onların kitabları, bunların rəngi və s.

Belə birlşmələrdə birinci tərəf konkretlik tələb etdiyi üçün onları mən kitabım, sən kitabın, o kitabı, bu rəngi , siz kitabınız, onlar kitabları, bunlar rəngi kimi işlətmək mümkün deyildir. Ona görə də konkretlik bildirən sözün birləşmədə ümumiləşdirilməsi və şəkilçisiz işlədilməsi norma yarada bilmir.

b) birləşmənin birinci tərəfində konkret şəxs və ya şəxsiyyət adının sahib şəxs anlayışı üzrə işlədilməsində: Nərimanovun heykəli, Səməd Vurğunun büstü, Səlimin maşını, atamın kitabı, qardaşımın köynəyi, Mahmudun atı, Mehdinin dostları, oğlumun qonaqları, Üzeyir Hacıbəyovun ev müzeyi və s.

c) birləşmənin birinci tərəfində konkret mənası yer, məkan və coğrafi ərazi adları bildirən sözlərin işlədilməsində: Azərbaycanın relyefi, Bakının işıqları, Gəncənin əzəməti, Azərbaycanın bütövlüyü, sərhədlərin qorunması və s.

200. s. 252

ç) birləşmənin birinci tərəfində müəllif adı, ikinci tərəfində konkret əsər adının işlədilməsində: Səməd Vurğunun "Aygün" poeması, Süleyman Rəhimovun "Şamo" romanı, Füzulinin "Leyli və Məcnun" poeması, Aşıq Ələsgərin "Dağlar" qoşması və s.

ğ) birləşmənin birinci tərəfində konkret qrammatik şəxsləri təcəssüm etdirən sözlər işlədildikdə : qardaşımın kitabı, əlinin zəhməti, hamımızın köməyimiz, adamların köməyi, danışanın fikri, və s.

d) birləşmənin birinci tərəfində konkretlik funksiyası bildirən cəmlik və hal şəkilçilərinin ardıcıl işlənməsində: adamların yardımı, dostların görüşü, dinləyicilərin mövqeyi, çağırılanların bəzisi, yazanların çoxu.

2) daimi umumilik bildirənlər

Daimi umumilik bildirən yiyəlik hallı birləşmələrdə birinci tərəflər yiyəlik hal şəkilçisi qəbul etmir. Belə birləşmlərdəki yiyəlik (sahib şəxs) anlayışını ancaq ikinci tərəfdəki mənsubiyyət şəkilçili sözlə müəyyənləşdirmək mümkündür: Yiyəlik hallı birləşmələrdə aparıcılıq funksiyası ikinci tərəfin üzərinə düşdüyünə görə birinci tərəfdə hal şəkilçisi iştirak etmədikdə sahib şəxs anlayışı ikinci tərəfdə məntiqi yolla ifadə olunur. Birləşmənin özü tərəflərin sintaktik grammatik əlaqəsinə əsaslandığından burada normativliyin özü də qrammatik xarakterli hesab edilir. Bu qəbildən olan yiyəlik hallı birləşmələrin birinci tərəfində sahib şəxs anlayışı, əslində, motivləşmiş bir anlayışdır və məntiqi cəhətdən şərti məna xüsusiyyəti daşıyır. Azərbaycan dilində bu qayda üzrə formalaşan və sintaktik cəhətdən müvafiq qrammatik qaydalara tabe olmaqla yanaşı, yiyəlik hallı birləşmələrə dair aşağıdakı nümunələri misal göstərmək olar : Qələbə meydanı, mədəniyyət sarayı, Kirpi jurnalı, Sabir bağı, Bakı şəhəri, Quba meydanı, Kəpəz dağı, Qızlır bulağı, "Koroğlu" dastanı, müalicə suları, Nərimanov metrosu, neft quyusu, Qız qalası, şadlıq sarayı, Gənclər meydanı, Gənclik metrosu, Kəpəz rayonu, Qazax rayonu, sərhəd rayonları, meyvə bağı, taxıl əkini, dəmir yolu, təndir çörəyi, əlçantası, əl ağacı və s.

3) qeyri- sabit bırləşmələr

Qeyri-sabit birləşmələrdə birinci tərəflə ikinci tərəf arasındakı konkretlik və ya umumilik anlayışı mətndən asılı olur. Əgər mətnə görə konkretlik tələb edilirsə yiyəlik hallı birləşmənin birinci tərəfində yiyəlik hal şəkilçisinin işlənməsinə zərurət yaranır. Mətnə görə konkretlik tələb olunmadıqda isə birinci tərəfdə yiyəlik hal şəkilçisinin işlənməsinə ehtiyac olmur. Məsələn, kənd həyatı-kəndin həyatı, qoyun ati-qoyunun əti, yol kənarı-yolun kənarı, insan taleyi-insanın taleyi, canavar yuvası-canavarın yuvası, pambıq toxumu-pambığın toxumu, ailə dostları-ailənin dostları, ata nəsihəti-atanın nəsihəti, saat əqrəbi-saatın əqrəbi, ölkə həyatı-ölkənin həyatı, axşam hayası- axşamın havası, vətən çağrışı-vətənin çağrısı, yaz küləyi-yazın küləyi, payız yağışı-payızın yağışı, ömür karvanı-ömrün karvanı, yay gecələri-yayın gecələri, inək südü-inəyin südü, qoyun yunu-qoyunun yunu və s.

Yiyəlik hal şəkilçisinə görə qeyri-sabit olan yiyəlik hallı birləşmələrin tərəfləri bir qayda olaraq motivləşməyən, məcazi mənalılıq daşıyan və həmçinin, ümumiləşdiricilik xarakterli sözlərdən təşkil olunur. Belə hirləşmələrın tərəflərində konkret şəxsləri, yəni birinci və ikinci şəxslərin təkini və cəmini bildirən sözlər işlədilir. Bu tipli birləşmələrdə tərəflər həmişə üçüncü şəxsi bildirən vahidlərdən düzəlir. Üçüncü şəxs isə məlum olduğu

üzrə konkret şəkildə meydanda olmadığı üçün həmişə ümumiləşməyə meyllidir. Üçüncü şəxsin konkretliyi, bilavasitə qrammatik vasitələrlə meydana çıxır ki, bu halda yiyəlik hallı birləşmələrdə konkretlik tələbi üzrə yiyəlik hal şəkilçilərinin iştirakı zəruriləşir. Nəhayət, qeyri-sabit yiyəlik hallı birləşmələrdə konkretləşdiricilik yaratmaq məqamında işlədilən ardıcıl qrammatik şəkilçilərin (xüsusilə, kəmiyyət və hal şəkilçilərinin) işlədilməsi səciyyəvi deyildir. Belə ki, məsələn, qonaqlarm gəlişi, adamların cəmlənməsi, quşların çəh-cəhi, çayların şırıltısı, göylərin gurultusu, havaların istiləşməsi kimi yiyəlik hallı birləşmələrdə ardıcıl şəkilçilər konkretlik yaratmaq məqamında işlədilir. Bunları qonaqlar gəlisi, adamlar cəmlənməsi, quşlar cəh-cəhi, çaylar şırıltısı, göylər gurultusu, havalar istiləşməşi kimi işlətmək olmur.

Ancaq birinci tərəfi kəmiyyət şəkilçisi qəbul edən motivləşmiş sözlərlə ifadə olunan yiyəlik hallı birləşmələrdə konkretləşmə zəruri olmadığı üçün yiyəlik hal şəkilçisi işlədilmir. Məsələn, ellər bayramı, dillər əzbəri, xalqlar dostluğu, illər xəstəsi, xəyallar aləmi, arzular dünyası kimi birləşmələr bu qəbildəndir.

Belə birləşmələrin birinci tərəfində yiyəlik hal şəkilçisi işlədildikdə həmin tərəf artıq motivləşmə xüsusiyyətlərindən uzaqlaşır. Belə ki, məsələn, ellər bayramı, dillər əzbəri, xalqlar dostluğu, illər xəstəsi, xəyallar aləmi, arzular dünyası kimi konkret mənalı vahidlərdə motivləşmə xüsusiyyəti mövcud deyildir. Buradan göründüyü kimi, qrammatik normalaşma təkçə qrammatik şəkilçilərdən asılı olmayıb həm də nitqlə, mətnlə və nitq vahidləri arasındakı leksik-sintaktik əlaqələrlə bağlıdır.